Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Azərbaycan hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyir

**Məlumdur ki, hüquqi dövlət deyilərkən ilk növbədə bütün fəaliyyətində qanuna tabe olan hakimiyyətin mövcudluğu nəzərə alınır. Onun əsas məqsədi isə insan hüquq və azadlıqlarının təmin edilməsidir.**



Beləliklə, hüquqi dövlət odur ki, burada hakimiyyətin təşkili və fəaliyyəti sırf qanuna əsaslanır və ona uyğun olur.

**Geniş miqyas alan islahatlar hüquqi dövlət quruculuğu prosesində yeni nailiyyətlərə yol açır**

Təcrübə göstərir ki, hüquq dövləti yaratmaq üçün onun sadəcə elan edilməsi kifayət deyil. Belə dövlətin mövcudluğu üçün vətəndaş cəmiyyətinin əməli fəaliyyəti, hər kəs tərəfindən hakimiyyətin qeyri-konstitusion fəaliyyətinə qarşı mübarizə aparmaq imkanının olması zəruri şərtdir. Qanunun aliliyi dövlətçiliyin yüksək nüfuzunu, iqtisadi və mənəvi sahədə bütün insan hüquqlarını təmin etməlidir.

Hüquqi dövlət anlayışı çoxölçülüdür, demokratik dövlət konsepsiyasına aid hər şeyi özündə ehtiva edir. Bura ilk növbədə qanunun aliliyi, insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə təminatı, hamının qanun qarşısında bərabərliyi, səlahiyyətlərin bölgüsü, məhkəmə müstəqilliyi daxildir. Qeyd edilənlər prizmasından yanaşdıqda ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində mühüm uğurlara imza atıldığını demək olar. Məlum həqiqətdir ki, son illər geniş miqyas alan islahatlar artıq bütün sahələri əhatə edib. Bu da ölkəmizin inkişafında, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və idarəetmədə operativliyin, çevikliyin təmin olunmasında mühüm rol oynayıb. Nəticədə hüquqi dövlət quruculuğu istiqamətində də mühüm nailiyyətlər əldə edilib. Bu fonda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində aparılan islahatlar cəmiyyətin, eləcə də ictimai münasibətlərin inkişafında önəmli rol oynayıb. O da önəmli faktordur ki, məhkəmələrdə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, o cümlədən məhkəmə prosesi zamanı audio-video yazılışların aparılması, bütün məhkəmə iclaslarının protokollaşdırılması, elektron sənəd dövriyyəsinin tam tətbiqi ilə bağlı bütün zəruri infrastruktur yaradılıb. Daha bir ənəmli məqam budur ki, ölkəmizdə vətəndaşa cəmiyyətin bütün seqmentlərinə siyasi, iqtisadi, hüquqi həyatda iştirak etmək üçün zəruri imkanlar yaradılıb. İnsan hüquq və azadlıqlarının ali prioriteti Konstitusiya və qanunlarımızda təsbit edilib. Qanunun aliliyi insan hüquq və azadlıqlarının toxunulmazlığını, onlara riayət etmək və qorumaq öhdəliyini tanıyır. Ölkəmizdə "qadağan edilməyən hər şeyə icazə verilir" qanunun aliliyinin ən mühüm prinsipidir. Hüquq və azadlıqlara bu cür yanaşma Azərbaycan Konstitusiyasına və bir çox qanunlara sözün əsl mənasında nüfuz edir. O, yuxarıda göstərildiyi kimi, Konstitusiya quruluşunun humanist əsaslarının mahiyyətini təşkil edir. Hüquqi dövlətdə hüquqpozmalardan qaçmaq mümkün deyil, lakin hər hansı səhv və pozuntuların aradan qaldırılması, insan hüquqlarına ciddi və prioritet riayət olunması üçün məlum və ümumi istifadə edilən təminatlar, mexanizmlər olmalıdır. Hüquq və azadlıqların təminatının əsas mexanizmi kimi ilk növbədə məhkəmələrin müstəqilliyi təmin edilməlidir. Çünki yalnız müstəqil məhkəmə vətəndaşı icra hakimiyyətinin özbaşınalığından səmərəli şəkildə qorumağa qadirdir. Bunu nəzərə alaraq ölkəmizdə məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənib. Onu da qeyd edək ki, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsindən bəhs edərkən prezident İlham Əliyevin imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı xüsusi vurğulamaq lazımdır. Bu sənəd məhkəmə sistemində növbəti islahatların aparılması və bu sahədə müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə yanaşı, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, süründürməçiliyə yol verilməməsi, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin hər zaman vacib və aktual olduğunu bir daha müəyyənləşdirib. Onlara riayət edilməsi indi xüsusi diqqət mərkəzindədir.

**Ölkəmizdə beynəlxalq hüququn üstünlüyü qeyd-şərtsiz qəbul edilir**

Beynəlxalq hüququn üstünlüyü bu gün sivil dünyada qeyd-şərtsiz qəbul edilir. Öz qanunlarını qəbul etməkdə suveren hüququ olan dövlət razılaşır ki, onlar dünya birliyinin qanunlarına zidd olmamalıdır. Beləliklə, beynəlxalq hüquq normalarına sədaqət vasitəsilə milli hüquq sistemlərinin bir növ ən yüksək səviyyədə birləşdirilməsi, insan hüquq və azadlıqlarının, demokratiya və sosial tərəqqinin təminatı baş verir. Bu prinsipin bir çox dövlətlərin konstitusiyalarına daxil edilməsi də bununla izah olunur. Azərbaycan da məsələyə eyni prizmadan yanaşır.

Azərbaycan Konstitusiyasında beynəlxalq hüququn prioritet prinsipi belə demək olarsa, iki hissəyə bölünür. Birincisi, müəyyən edilib ki, beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, eləcə də Azərbaycanın beynəlxalq müqavilələri onun hüquq sisteminin tərkib hissəsidir. İkincisi, qanun normaları ilə Azərbaycanın beynəlxalq müqaviləsinin qaydaları arasında uyğunsuzluq olduqda, beynəlxalq müqavilənin qaydalarına üstünlük verilir. Bu, ölkəmizin hüquqi dövlət quruculuğunda mühüm nailiyyətlərindən biridir. Bundan başqa, ölkəmizdə praktiki həyatda qanunun aliliyi daha çox aspektləri əhatə edir, bunlara aşağıdakılar aid oluna bilər: 1. qanunvericilik sahəsində parlamentin yüksək mövqeyi; 2. ordunun xaricdə və ölkə daxilində istifadəsinə demokratik nəzarət; 3. dövlətin kütləvi informasiya vasitələrinin işinə qarışmaması; 4. əks-kəşfiyyat orqanlarının fəaliyyət üsullarının qanuniliyi; 5. hökumətin xarici siyasət addımlarının ictimailəşdirilməsi və sair. Təbii ki, icra hakimiyyəti orqanlarının bütün müvafiq hərəkətləri üçün konkret qanunlar olmalıdır, istənilən dövlət qərarlarının, xüsusən də məcburiyyətdən istifadə ilə bağlı qərarların əsasında yalnız hüquq dayanmalıdır. Azərbaycan da məsələyə məhz bu prizmadan yanaşır. Bu, həm də xalqın iradəsini özündə əks etdirir. Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxışı zamanı prezident İlham Əliyev bununla bağlı bildirib: "Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın... Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**